# Parlamentin buraxılması ilə bağlı Prezidentə müraciət qəbul edildi

## "Səlahiyyətlərinin müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və növbədənkənar seçkilər keçirilməlidir"

**Milli Məclisin ötən gün növbəti iclası keçirilib. İclasda Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə məsələ müzakirə edilib.**

İclası açan **Milli Məclisin Sədri Oqtay Əsədov** bildirib ki, Yeni Azərbaycan Partiyası (YAP) noyabrın 28-də Milli Məclisə parlamentin buraxılması və növbədənkənar seçkinin keçirilməsi haqqında müraciət edərək iclasın çağırılmasını xahiş edib. Sədrin sözlərinə görə, Milli Məclisin qanunvericiliyə uyğun olaraq məsələni müzakirə edərək qərar qəbul etmək səlahiyyətləri var.

**Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov** məsələ ilə bağlı deputatlara müraciət edib. Bildirib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu, dövlət idarəçiliyi, daxili və xarici siyasət kursu YAP sədri, Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam edir. Onun sözlərinə görə, sosial-iqtisadi inkişaf strategiyası, iqtisadiyyatın dinamik inkişafı əhalinin rifahının daha da yaxşılaşdırılması siyasətinin bundan sonra da effektiv transformasiyasını, daha geniş hədəflərinin müəyyənləşməsini və daha dərin islahatların aparılmasını zərurətə çevirir. S.Novruzov deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında islahatlar konsepsiyası hazırda daha böyük dinamizm qazanmaqdadır: "Azərbaycan Nazirlər Kabinetində, məhkəmə-hüquq sistemində və regional idarəetmə orqanlarında struktur və kadr islahatları cəmiyyətdə rəğbətlə qarşılanır. Cəmiyyət inanır ki, islahatlar bundan sonra da uğurla davam etdiriləcək. YAP üzvlərinin çoxluq təşkil etdiyi Milli Məclis ölkədə həyata keçirilən islahatların daha da genişlənməsi və dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik sahəsini əhatə etməsini təmin etmək məqsədilə prinsipial mövqe və dövlətçiliyə xidmət nümunəsi göstərməlidir. Belə ki, indiki tarixi şəraitdə Milli Məclisin fəaliyyətinin təkmilləşdirilməsinə, səmərəliliyin artırılmasına, dərin islahatlar strategiyasına uyğunlaşmasına ehtiyac özünü daha aydın və qabarıq şəkildə büruzə verir".

**Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** gündəlikdəki məsələni hüquqi cəhətdən təhlil edib. Bildirib ki, 2016-cı ildə keçirilən referendum və konstitusiyaya edilən əlavə, dəyişikliklər bu gün nəzərdə tutulan işlər üçün ciddi bir konstitusion baza rolunu oynayır: "Konstitusiyanın 98-ci maddəsi parlamentin buraxılması məsələsini həll etmiş olur. Xüsusi vurğulamaq istəyirəm ki, 2018-ci ildə növbədənkənar prezident seçkiləri keçirildi. Ölkə başçısı İlham Əliyev yenidən xalqın mandatını almış oldu. Ölkədə tam müasir və dünya standartlarına cavab verən yeni islahatlar başlandı. Bu islahatlar mərkəzi və icra, məhkəmə hakimiyyətini əhatə etmiş oldu. Bu illər ərzində parlament öz fəaliyyətində Prezidentin islahatlarına dəstək verib. Bununla yanaşı, parlamentin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı cəmiyyətin də düşüncələri var. Bu baxımdan Yeni Azərbaycan Partiyasının parlamentin buraxılması ilə bağlı müraciəti əslində xalqın etimadını yenidən qazanmaq niyyətindən irəli gəlir. Bu, eyni zamanda partiyanın xüsusi siyasi mədəniyyətini göstərir".



Millət vəkili Ə.Hüseynli qeyd edib ki, bir sıra ekspertlər və opponentlər tərəfindən Milli Məclisin buraxılmasının Konstitusiyanın 89-cu maddəsinin 5-ci bəndində qeyd olunmuş deputatın özünün imtina ilə bağlı səlahiyyətlərinə xitam verilməsi məsələsi ilə eyniləşdirilməsi çox yanlış yanaşmadır: "Çünki bu məsələ Konstitusiyanın 98-ci maddəsində qeyd olunub. Milli Məclisin buraxılması ilə bağlı müraciət göz qabağındadır. Konstitusiyanın 94-95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərin qeyd etdiyimiz müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması məqsədi ilə bu addım atılmış olur. Bu yanaşma bizim konstitusiyamıza və hüquq sisteminə uyğundur".

Daha sonra müzakirələr başlayıb. Çıxış edən **deputat Azay Quliyev** hazırda parlamentdə qeyri-adi bir məsələnin müzakirə edildiyini vurğulayıb. Bildirib ki, müasir və müstəqil Azərbaycan tarixində yeni bir ənənənin əsası qoyulur: "Milli Məclis öz təşəbbüsü ilə parlamentin buraxılması mexanizmini işə salmaq üçün toplaşıb və müzakirə aparır. Hesab edirəm ki, bu qərarı verməklə Azərbaycanın siyasi həyatında yeni bir ənənənin, yeni bir mədəniyyətin tətbiqinin əsasını qoymuş olur. YAP Siyasi Şurasının və parlamentdə təmsil olunan deputatların təşəbbüsünün bu vaxtda irəli sürülməsi təqdirəlayiq haldır. Həmkarlarımın da qeyd etdiyi kimi, belə bir təşəbbüs heç şübhəsiz ki, Azərbaycanda həyata keçirilən islahatların ruhuna və trendinə uyğun olan yeni bir parlamentin formalaşmasına şərait yaradacaq. Heç şübhəsiz ki, həmin islahatların da qanunvericilik səviyyəsində töhfələr verməsi üçün əlavə imkanlar əldə olunacaq. Yeni Azərbaycan Partiyası bu təklifi irəli sürən zaman kifayət qədər fikirlərini açıq şəkildə bildirib, arqumentlərini qeyd edib və hansı motivlərlə çıxış edərək belə bir təşəbbüsün irəli sürülməsini ifadə edib. Məncə, bu barədə danışmağa ehtiyac yoxdur".

Millət vəkili A.Quliyev qeyd edib ki, bu gün YAP çox böyük cəsarətlə islahatlara yeni nəfəs vermək, parlamentə üzv olan deputatların mandatının yenilənməsi üçün xalqa müraciət etmək qərarına gəlib: "Bu, onunla izah olunmalıdır ki, hazırda həyata keçirilən islahatlara xalqın da dəstəyini bir daha qazanmaq və bu dəstəyin parlament səviyyəsində ehtiva olunmasına nail olmaq əsas məqsəddir. Şübhə etmirəm ki, YAP-ın məhz seçki öncəsi əsas şüarlarından biri islahatlarla bağlıdır. Hesab edirəm ki, erkən parlament seçkilərinin keçirilməsi təşəbbüsü həm də ona imkan yaradacaq ki, qanunvericilik hakimiyyəti ilə icra hakimiyyəti arasında daha dəqiq balansın formalaşması və tənzimlənməsi həyata keçirilsin. Əlaqə və əks-əlaqə bugünkü günümüzün tələblərinə uyğun şəkildə təşkil edilsin. Bir məsələni də unutmamalıyıq ki, YAP dünya təcrübəsinə əsasən belə bir təşəbbüslə çıxış edir və özünün parlamentdə təmsil və əldə etdiyi səs çoxluğundan istifadə edir. Bununla da gələcək strateji hədəflərinə çatmağı və milli maraqlarımızı təmin etməyi hədəfləyir. Hansı ki, bu da təqdir olunmalı və dəstəklənməlidir".

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov** Azərbaycan xalqını ən yüksək səviyyədə təqdim və müdafiə edən, faktiki milli maraqlarımızı təmsil edərək, milli dəyər səviyyəsinə yüksələn Prezident İlham Əliyevin öz işini peşəkar cəhətdən ən yüksək səviyyədə apardığını diqqətə çatdırıb. Qeyd edib ki, uzun illər ərzində aparılan quruculuq siyasəti yeni Azərbaycan formalaşdırıb: "Xalq müasirləşib, tələbləri artıb, onun düşüncə tərzi, təhliletmə qabiliyyəti yüksəlib. Bir sözlə, Azərbaycanda milli və müasir şüur formalaşıb və bu şəraitdə biz xalqın qarşısında təmsilçiliyimizi mütləq yenidən təsdiq etməliyik. İslahatların məntiqi, dünya təcrübəsi, beynəlxalq öhdəliklər bunu belə tələb edir. Məhz buna görə, təmsilçi rolunu yüksək səviyyədə yenidən təsdiq etmək üçün bu qərarı dəstəkləməliyik. Biz xalqın müasirlik səviyyəsinə uyğun, müxtəlif dilləri bilən, vətənpərvər, peşəkar insanlara daha geniş yol açmalıyıq. Biz xarici siyasətimizi ən yüksək səviyyədə təmsil etməliyik. Biz xalqımız və Prezidentimizin yüksək tələblərinə uyğun yeni parlament formalaşdırmalıyıq".

Müzakirələrdən sonra **Milli Məclis Sədrinin müavini Bahar Muradova** parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədə qərar layihəsini oxuyub. Qərar layihəsində qeyd edilib ki, Milli Məclis ölkədə həyata keçirilən islahatların genişlənməsi, dərinləşməsi prosesindən kənarda qalmamalı, islahatların qanunvericilik orqanını da əhatə etməsi məqsədi ilə dövlətçilik nümunəsi göstərməlidir. Bu baxımdan Milli Məclisdə çoxluq təşkil edən YAP üzvləri parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Prezidentə müraciətlə əlaqədar Milli Məclisin sədrinə müraciət ediblər. Deputatlar belə vəziyyətdə parlament fəaliyyətinin həyata keçirilməsinin mümkün olmayacağı qənaətinə gəldiklərini və növbədənkənar seçkilər keçirilməsinin zəruri olduğunu bildiriblər. Həmin müraciətin parlamentin plenar iclasında müzakirəsi zamanı digər partiyaları təmsil edən, habelə heç bir partiyaya mənsub olmayan deputatların əksəriyyəti YAP təmsilçilərinin təşəbbüsü ilə həmrəylik nümayiş etdirərək parlament fəaliyyətinin yaranmış vəziyyətdə davam etdirilməsinin mümkünsüz olduğunu bəyan ediblər.

Qərar layihəsində bildirilib ki, Milli Məclis deputatlarının mütləq əksəriyyətinin parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqelərinin mövcudluğu nəzərə alınaraq, deputatların ölkə vətəndaşları tərəfindən yenidən seçilməsi zəruridir: "Öz səlahiyyətlərini artıq icra edə bilməməsi şəraitində Milli Məclis hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Milli Məclisin Konstitusiyanın 94-95-ci maddələrində nəzərdə tutulan səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir. Milli Məclis Konstitusiyanın 95-ci maddəsinin 3-cü hissəsini rəhbər tutaraq qərara alır: Konstitusiyanın 98-1-ci maddəsinə əsasən, Milli Məclisin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentə müraciət edilsin".

Qərar layihəsi səsverməyə çıxarılıb və qəbul edilib.

**Alpər TURAN**